

ULU ÖNDƏR 102 HEYDƏR ƏLİYEV

# ÜMUMMİLLİ LİDERƏ ÜMUMXALQ EHTİRAMI



**Ümummilli Lider Heydər Əliyevin doğum günü, Azərbaycan xalqı və dövləti qarşısındakı xidmətləri respublika səviyyəsində qeyd edilir. Həm paytaxt Bakıda, həm də rayonlarda anım tədbirləri keçirilir.**

Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü ölkəmizin hər bir guşəsində qeyd edilib. Ümummilli Liderin həyat və fəaliyyəti, Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətləri bir daha vurğulanıb.

**XƏTAİDƏ MÖHTƏŞƏM KONSERT PROQRAMI**

Xətai rayonunda bu münasibətlə möhtəşəm konsert proqramı təşkil olunub. Tədbirdə rayon İcra Hakimiyyətinin rəhbərliyi, Milli Məclisin deputatları, ictimaiyyət nümayəndələri, şəhid ailələri, qazilər və digərləri iştirak ediblər. Konsertdə bir çox məşhur incəsənət ustaları və gənc müğənnilərin ifasında Ulu Öndər Heydər Əliyevə, həmçinin müstəqil Azərbaycana həsr olunan vətənpərvər ruhlu mahnılar ifa edilib.

**"HEYDƏR ƏLİYEV – ZƏFƏR YOLUNUN MEMARI!"**

Nərimanov rayonunda "Heydər Əliyev – Zəfər yolunun memarı!" adlı tədbir keçirilib. Tədbirdə "Heydər Əliyev – Zəfər yolunun memarı!" adlı videoçarx tədbir iştirakçılarına təqdim olunub.

Çıxış edənlər bildiriblər ki, Ulu Öndər Heydər Əliyevin siyasi irsi, əslində dövlətçilik tarixidir. Çünki o, iki ayrı dövrdə respublikamıza uğurla rəhbərlik edib, milli tərəqqini – iqtisadi inkişafı, mədəni intibahı və siyasi yüksəlişi təmin etməyə müvəffəq olub. Ümummilli Liderin gördüyü işlər Azərbaycanın siyasi simasını, milli obrazını formalaşdırıb.

Binəqədi rayonunda da "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" adlı tədbir keçirilib. Tədbirdə Heydər Əliyevə həsr olunmuş sənədli film nümayiş olunub. Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev müstəsna xidmətləri ilə əbədilik qazanan Heydər Əliyevin böyük, mənalı və şərəfli həyat yolu, zəngin və çoxşaxəli irsi haqqında söhbət açaraq qeyd edib ki, Ümummilli Liderimizin böyük fədakarlıqları hesabına Azərbaycanın müstəqilliyinin əbədiliyi, daimiliyi, dönməzliyi təmin edilib. Dahi rəhbərin əsasını qoyduğu ordu quruculuğu işlərinin layiqincə davam etdirilməsi nəticəsində Müzəffər Ali Baş Komandan İlham Əliyev Ulu Öndərin ən ümdə vəsiyyətini yerinə yetirib, doğma torpaqlarımızın erməni işğalından azad edilməsinə nail olub.







**"HEYDƏR ƏLİYEV: ƏBƏDİYAŞAR LİDER"**

Bölgələrdə də Ulu Öndərin anadan olmasının 102-ci ildönümü müxtəlif tədbirlərlə qeyd olunub.

Şirvan Şəhər İcra Hakimiyyəti və Şirvan Şəhər Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev: Əbədiyaşar Lider" mövzusunda tədbir keçirilib.

Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov Ümummilli Liderin Azərbaycanın müstəqilliyi, güclü dövlətə çevrilməsi, beynəlxalq aləmdə tanınması üçün həyata keçirdiyi siyasi, iqtisadi, mədəni islahatlardan danışıb. Bildirilib ki, Ulu Öndərin 1993-cü ildə xalqın çağırışı ilə yenidən ölkə rəhbərliyinə qayıdışı Azərbaycanı dövlət müstəqilliyinin itirilməsi təhlükəsindən, dərin siyasi, iqtisadi və sosial böhrandan xilas edərək uzunmüddətli tərəqqi yoluna çıxarıb.

**"ƏBƏDİYYƏTİN İLK ƏSRİ"**

Şamaxıda da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş tədbir keçirilib, həyat və fəaliyyətinə həsr olunmuş "Əbədiyyətin ilk əsri" adlı film nümayiş etdirilib.

Tədbirdə çıxış edən Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov Ümummilli Lider Heydər Əliyevin ölkənin ictimai-siyasi və iqtisadi həyatında açdığı yeni mərhələdən danışıb, onun siyasi kursunun bu gün də uğurla davam etdirildiyini vurğulayıb.

Milli Məclisin deputatı Tamam Cəfərova çıxışında dahi rəhbər Heydər Əliyevin dövlətçilik ənənələrinin əhəmiyyətindən, xüsusən bölgələrin sosial-iqtisadi inkişafında oynadığı roldan bəhs edib.